

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 17 (21.678)

*25 yanvar 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Yanvarın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətlə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı muxtar respublikada görməkdən məmnunluğunu bildirmiş, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Qərbi Azərbaycan Vilayəti arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini və gediş-gəlişin artdığını diqqətə çatdırmış, bunu qarşılıqlı münasibətlərin göstəricisi kimi dəyərləndirmişdir.

Ali Məclisin Sədri Şahtaxtı-Poldəşt gömrük keçid məntəqəsinin iş saatının artırılmasının və iqtisadi-ticarət əlaqələrinin inkişafının hər iki tərəf üçün faydalı olduğunu vurğulamışdır. Ali Məclisin Sədri əlaqələrin inkişafına verdiyi töhfəyə görə Qurbanəli Səadətə təşəkkür etmiş, münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirmişdir.

Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadət göstərilən diqqətə və səmimi görüşə görə minnətdarlıq etmiş, Qərbi Azərbaycan Vilayətinin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırmışdır. Qurbanəli Səadət İranın Qərbi Azərbaycan Vilayətinin iqtisadi inkişafı haqqında məlumat vermiş, qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi imkanlarından danışmışdır.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Qərbi Azərbaycan Vilayəti arasında iqtisadi əlaqələr genişləndirilir

***Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələr uğurla inkişaf etdirilir. Bu əlaqələr son illərdə hər iki ölkə tərəfindən imzalanan sənədlər və əldə olunan razılıqlar nəticəsində daha da möhkəmlənib. Qarşılıqlı səfərlər əməkdaşlıq münasibətlərinin yeni mərhələyə qədəm qoymasına imkan verib. Yanvarın 24-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadətin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlib.***



Qərbi Azərbaycan Vilayətinin sənaye, mədən, kənd təsərrüfatı, tikinti sahələrində fəaliyyət göstərən iş adamları dünən Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan məhsullarla tanış olublar, naxçıvanlı sahibkarlarla görüşüblər.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov qonaqlara məlumat verib ki, Naxçıvan Biznes Mərkəzinin əsas fəaliyyəti sahibkarların maarifləndirilməsi, onlara metodoloji dəstəyin göstərilməsi və biznesin inkişafı üzrə məsləhətlərin verilməsidir. Bildirilib ki, muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsinə göstərilən dövlət dəstəyi sayəsində ümumi daxili məhsulda özəl sektorun payı 87 faizi ötüb. Hazırda muxtar respublikada 366 növdə məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Qonaqların diqqətinə çatdırılıb ki, hazırda mərkəzdə 100-ə yaxın istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş etdirilir.

Sahibkarlarla keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası və Qərbi Azərbaycan Vilayətində istehsal olunan məhsulların qarşılıqlı olaraq ixracı və idxalının, iş adamları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, geniş fikir mübadiləsi aparılıb.

Muxtar respublikada istehsal edilən məhsullarla tanış olan nümayəndə heyətinin üzvləri Naxçıvanla Qərbi Azərbaycan Vilayəti arasında iqtisadi əməkdaşlıq üçün münbit şəraitin olduğunu bildirdilər.

İran İslam Respublikası Urmiya Ticarət, sənaye, mədən və kənd təsərrüfatı palatasının rəisi Həsən İntizar bizimlə söhbətində dedi: – Bura nümayəndə heyəti ilə gəlmişik. Gəlişimizin məqsədi Qərbi Azərbaycan Vilayəti ilə Naxçıvan arasında iqtisadi münasibətləri bir daha müzakirə etmək və qarşılıqlı fəaliyyətin istiqamətlərini müəyyənləşdirməkdir. Bizim nümayəndə heyətinin tərkibində müxtəlif sahələr üzrə fəaliyyət göstərən sahibkarlar var. Bu sahibkarlar Naxçıvan Biznes Mərkəzində sizin yerli məhsullardan ibarət təşkil olunmuş sərgiyə baxdılar, eyni zamanda naxçıvanlı sahibkarlarla görüşdülər. Düşünürəm ki, hər iki tərəfin fəaliyyəti üçün yaxşı potensial var və əməkdaşlığımızın genişləndirilməsi qarşılıqlı iqtisadi əlaqələrin həcminin artmasına öz töhfəsini verəcək.

Qərbi Azərbaycan Vilayətinin Sənaye, mədən və ticarət təşkilatının rəisi Cəfər Sadiq İskəndəri bildirdi ki, Naxçıvanda olmağımızdan çox məmnunuq. Naxçıvan Biznes Mərkəzində naxçıvanlı sahibkarlarla görüşdük və burada müxtəlif müəssisələrdə istehsal olunmuş məhsullarla tanış olduq. Şahidi olduq ki, Naxçıvanda sənaye, mədən, kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələr var. Eyni zamanda Qərbi Azərbaycan Vilayətində də belə müəssisələr fəaliyyət göstərir. Düşünürəm ki, biz qarşılıqlı olaraq məhsullarımızın tanıdılması üçün sərgilər təşkil edə, hər iki tərəf üçün ixrac və idxal imkanlarımızı dəyərləndirə bilərik. Əsas məqsədimiz Qərbi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi əlaqələri daha da dərinləşdirməkdir.

*Qeyd edək ki, İran İslam Respublikasından gəlmiş nümayəndə heyəti həmin gün Bakıya yola düşüb. Qonaqlar Bakı şəhərində də müxtəlif tədbirlərdə iştirak edəcəklər.*

✍ **Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 2016-cı ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov məruzə ilə çıxış edib.***

## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları üzvlərinin sayı 70 mini ötüb

Bildirilib ki, 2016-cı ildə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün 33 hüquqi və 2173 fiziki şəxsin dövlət qeydiyyatına alınması və 47 yerli istehsal və xidmət sahəsinin yaradılması nəticəsində Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının tabeliyində olan təşkilatların sıraları yeni yaranmış ilk həmkarlar təşkilatının hesabına genişlənərək 1564-ə çatıb, ittifaq üzvlərinin sayı isə 70 mini ötüb. Şura tərəfindən yeni yaranmış həmin təşkilatlarda maarifləndirmə məqsədilə tədbirlər keçirilib, işçilərin sosial-iqtisadi tələbatının ödənilməsi və əməyinin mühafizəsi mövzusunda söhbətlər aparılıb.

Qeyd edilib ki, Naxçıvan turizm üçün ən ideal məkanlardan biridir. Bu qədim diyarda tarix-mədəniyyət abidələri, əsrarəngiz təbiət abidələri ilə yanaşı, istirahət mərkəzləri də vardır. Bunlardan biri də Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzidir. Bu mərkəz fəaliyyətə başlayan dövrdən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən burada məktəblilərin, o cümlədən şəhid ailələrinin, aztəminatlı və sağlamlıq imkanları məhdud ailələrin uşaqlarının istirahəti təşkil olunur. Bu iş 2016-cı ildə də davam etdirilib, Ağbulaq İstirahət Mərkəzində iyun ayından sentyabr ayınadək 300 nəfərdən çox məktəbli, uşaq və gəncin istirahəti təmin edilib.

"İnsan sağlamlığı cəmiyyətdə ən vacib şərtdir" devizini əldə rəhbər tutaraq şura hər il olduğu kimi, 2016-cı ildə də ittifaq üzvlərinin sağlamlığı qayğısına qalıb, onların ölkəmizin "Bilgəh", "Günəşli", "Mərdəkan", "Abşeron", "Şıx", "Qaranquş", "Naftalan" və sair kimi sanatoriyalarda müalicə almasını təmin edib.

Sonra məruzə ətrafında çıxışlar olub, qarşıda duran vəzifələr müzakirə edilib.

## Ölkə üzrə ən sərfəli kreditlər Naxçıvanda təklif olunur
## Naxçıvanbank kreditlərin faiz dərəcələrini yenidən aşağı salıb

*Davamlı dinamik inkişaf iqtisadi siyasətin əsas hədəflərindən biridir. Bu baxımdan səmərəli kreditləşmə mexanizminin təmin edilməsi istehsal və xidmət sahələrinin inkişafı, daimi məşğulluq və əhali gəlirlərinin artırılması kimi məqsədlərə xidmət edir. Məsuliyyətli və eyni zamanda olduqca vacib olan kreditləşmə zamanı əsas şərtlərdən biri də kreditlərin sərfəli olması, yəni onun faiz dərəcələrinin real iqtisadi vəziyyətlə üst-üstə düşməsidir.*



Faiz dərəcələrinin istehlakçılar üçün optimal səviyyədə olması kreditlərin əlçatanlığını artıran əsas amildir. Hazırda ölkəmizdəki kredit bazarına nəzər saldıqda görürük ki, muxtar respublikamızda kreditlər üzrə tətbiq edilən orta faiz dərəcələri Azərbaycanın digər iqtisadi rayonları ilə müqayisədə ən aşağı səviyyədədir.

Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına görə, 1 dekabr 2016-cı il tarixə təklif olunan kreditlər Abşeron iqtisadi rayonu üzrə 16,7 faiz, Aran iqtisadi rayonu üzrə 22,6 faiz, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 22,1 faiz, Gəncə-Qazax iqtisadi rayonu üzrə 19,5 faiz, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 19,8 faiz, Lənkəran iqtisadi rayonu üzrə 22,4 faiz, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 22 faiz, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 17,9 faiz, Naxçıvan Muxtar Respublikası üzrə isə 12,6 faiz təşkil edir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, muxtar respublikada kredit faizlərinin ölkə üzrə ən aşağı göstəricilər olmasına təsir edən mühüm amil "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən aşağı faiz dərəcələri ilə təklif edilən kreditlərdir. Adıçəkilən bankın Müşahidə Şurasının yeni qərarı ilə 18 yanvar 2017-ci il tarixdən kreditlərin faiz dərəcələri yenidən aşağı salınıb. Belə ki, yeni qaydalara görə kənd təsərrüfatı üzrə heyvandarlığa 15, taxılçılığa, kartofçuluğa, bostan, tərəvəz və qarğıdalı kimi əkinçilik sahələrinə 13 faizlə kreditlər verilir. Muxtar respublika sakinləri istehlak kreditlərini 17, kart kreditlərini 18, bankın öz vəsaiti hesabına verilən ipoteka kreditlərini isə 10 faizlə götürə bilərlər. Onu da qeyd etmək lazımdır ki, ipoteka krediti üzrə faiz dərəcəsinin aşağı salınması Naxçıvanbank tərəfindən əvvəlki illərdə verilmiş kreditlərə də şamil olunur.

İdarədən onu da bildiriblər ki, Naxçıvanda verilən kreditlər üzrə faizlər "annuitet" üsulla hesablanır. Bu da vətəndaşların əldə etdikləri vəsaitlər üçün ödəyəcəkləri real faiz dərəcəsinin aşağı düşməsinə səbəb olur. Kreditlərin faktiki illik faiz dərəcələri kənd təsərrüfatı üzrə 6,5-7 faiz, istehlak kreditləri üzrə 8,5-9 faiz, daxili ipoteka kreditləri üzrə 5 faiz təşkil edir.

Muxtar respublikada həyata keçirilən kreditləşmə işində 2016-cı ildə Ali Məclis Sədrinin müvafiq Fərmanı ilə yaradılan "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti vəsaitləri hesabına verilən 4-8 faizli, uzunmüddətli kreditləri də qeyd etmək lazımdır. Belə ki, bu kreditlər muxtar respublikamızda əhalinin mənzil təminatını yaxşılaşdırmaqla bərabər, real sektorun da inkişafına xidmət edir.

**Xəbərlər şöbəsi**

***Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Qəbul olunan dövlət proqramlarının icrası, güzəştli şərtlərlə kreditlərin verilməsi, aqrar sahədə müasir infrastrukturun yaradılması kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə də əkinçiliyin inkişafına əlverişli şərait yaratmış, bol məhsul istehsalına və daxili bazarın tələbatının ödənilməsinə səbəb olmuşdur.***

# “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” uğurla icra olunur

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi də muxtar respublikada əhalinin keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təminatına imkan verir. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası 2016-cı ildə davam etdirilmiş, muxtar respublikanın torpaq iqlim şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik 372 meyvə sortunun və “Araz” Elm-İstehsalat Birliyinin kolleksiya bağında 54 üzüm sortunun genetik fondu toplanmışdır. Həmin sortların çoxaldılaraq torpaq mülkiyyətçilərinə paylanması və yeni bağların salınması ilə əlaqədar işlər aparılmışdır. Bu dövrdə tərəvəz əkini sahələrinin genişləndirilməsinə də diqqət artırılmış, muxtar respublikada 2015-ci illə müqayisədə 2016-cı ildə kartof əkini 2,9 faiz, tərəvəz əkini isə 0,3 faiz artmışdır.



Meyvəçiliyin və tərəvəzçiliyin inkişafında vacib məsələlərdən biri də müasir meliorasiya və irriqasiya sistemlərinin qurulmasıdır. Ötən il bu sahədə bir sıra tədbirlər görülmüş, Kəngərli rayonunun Böyükdüz və Xok kəndləri ərazisində 117 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsi, Babək rayonunun Kərimbəyli və Kültəpə kəndlərində 217 hektar torpaq sahəsini əkin dövriyyəsinə qatan suvarma şəbəkəsi istifadəyə verilmiş, Şərur rayonunun Ələkli kəndinə Arpaçay sol sahil kanalından ümumi uzunluğu 3 kilometr olan yeni suvarma boru xətti çəkilmiş, 589 hektar ərazinin su təminatı yaxşılaşdırılmışdır. Bundan başqa, Uzunoba gölünə su aparan kanalda yenidənqurma, Şıxmahmud-Xəlilli kanalında təmir işləri aparılmış, muxtar respublika üzrə 29 kilometr beton kanal və 94 kilometr ara arxları lildən təmizlənmişdir. Yaşıllıqların suvarılması üçün Şərur, Babək, Şahbuz, Culfa, Ordubad, Sədərək və Kəngərli rayonları ərazilərində müxtəlif diametrli borularla, ümumilikdə, 34 kilometr suvarma xətti çəkilmiş və mövcud olanlar təmir edilmişdir.

Son illər muxtar respublikada yeni soyuducu anbarların istifadəyə verilməsi əhalinin qış aylarında yerli meyvə və tərəvəz məhsulları ilə təminatına şərait yaradır. Ötən il muxtar respublikada dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 1750 ton olan 6 soyuducu anbar yaradılmışdır. Həmçinin muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin stimullaşdırılması məqsədilə kənd təsərrüfatında istifadəsinə icazə verilən üzvi və qeyri-üzvi vasitələrin, o cümlədən tinglər və şitillərin idxalının rəsmiləşdirilməsi qanunvericiliyin tələblərinə uyğun olaraq sadələşdirilmiş və güzəştli qaydada həyata keçirilmişdir.




Qeyd olunan dövrdə əkinçilik üçün yararlı olmayan torpaq sahələrində meliorativ tədbirlərin görülməsi və yeni meyvə bağlarının salınması da diqqətdə saxlanılmışdır. Belə ki, Kəngərli rayonu ərazisində torpaq örtüyünün dəyişdirilməsi və əraziyə kənardan münbit humus qatlı torpaq örtüyü gətirilməklə, torpaqda münbit şərait yaradılmış və eyni zamanda əraziyə mütərəqqi damcılı suvarma sistemləri çəkilməklə 50 hektar sahədə püstə bağı salınmışdır. Püstə bağının ətrafındakı 4 hektar sahədə isə tarla qoruyucu yaşıllıq zolağı yaradılmışdır. Ümumilikdə, ötən il kənd təsərrüfatına yararsız 118 hektar torpaq sahəsində meyvə bağları və yaşıllıq zolaqları salınmışdır. Həmçinin dövlət proqramına uyğun olaraq Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində 44 hektardan artıq sahədə, Arazboyu düzənlik ərazilərində isə 48 hektar sahədə meyvə bağları, 4,5 hektarda isə üzüm bağı salınmışdır. Bu dövrdə tingçiliyin inkişafı da diqqətdə saxlanılmış, Şərur rayonunda iki sahibkar tərəfindən 4 hektar, Babək rayonunda bir sahibkar tərəfindən 0,5 hektar sahədə müxtəlif meyvə növlərinin məhsuldar sortlarından tinglər yetişdirilmiş, ümumilikdə, təsərrüfatlarda 87 min ədəd tingin satışı həyata keçirilmiş, 73 min meyvə tingi isə əkin üçün hazır vəziyyətə gətirilmişdir.

Kənd təsərrüfatı məhsullarının kütləvi istehsalı dövründə sağlam rəqabət mühitinin yaradılması, daxili bazarın keyfiyyətsiz məhsullardan qorunması və istehlakçıların hüquqlarının qorunması istiqamətində monitorinqlər aparılmış, yerli məhsulların satışına üstünlük verilməsi məqsədilə sahibkarlar maarifləndirilmiş və onlara ticarət qaydalarının tələblərinə əməl etmələri üçün müvafiq tövsiyə və tapşırıqlar verilmişdir. Əhalinin ucuz və keyfiyyətli məhsullarla tələbatının ödənilməsi məqsədilə Naxçıvan şəhərində və rayon mərkəzlərində həftənin şənbə və bazar günləri kənd təsərrüfatı, emal sənayesi məhsullarının satışı yarmarkası təşkil olunmuş, yarmarkalarda 56 yerli məhsul istehsalçısı tərəfindən əhaliyə 116 adda, 236 çeşiddə məhsul bazar qiymətlərindən 10-30 faiz ucuz qiymətə təklif olunmuşdur.

Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına son illər muxtar respublika üzrə üzümçülüyün inkişaf etdirilməsi məqsədilə 8 layihənin maliyyələşdirilməsinə 179 min manat, 64 layihə üzrə meyvəçilik təsərrüfatlarının yaradılmasına 1 milyon 308 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Muxtar respublikanın kənd təsərrüfatı sektorunda ixraca yönəlik məhsulların istehsalının təşkili sahəsində müvafiq monitorinq, müşahidələr və marketinq araşdırmaları aparılmışdır. Kənd təsərrüfatı məhsullarının rayon və kənd yerlərində qəbulunun təşkili, soyuducu kameralarda saxlanması üçün texnologiyaların mənimsənməsi, meyvə-tərəvəzin ilkin emalı və çeşidləndirilməsi üçün zəruri infrastrukturların yaradılması, eləcə də markalanma və qablaşdırılmasının yerinə yetirilməsi üçün optimal avadanlıqların müəyyən edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Meyvə qurudulması, o cümlədən göycənin qurudulması, qablaşdırılması və lavaşa istehsalı ilə bağlı layihələr hazırlanmış, sahibkarlarla görüşlərdə təqdimatı keçirilmiş və Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının rəsmi internet səhifəsində yerləşdirilmişdir.

2016-cı ildə fermer və sahibkarların maarifləndirilməsi məqsədilə Naxçıvan Televiziyasında və Naxçıvan Dövlət Radiosunda, “Naxçıvanın səsi” radiosunda verilişlər hazırlanmış, “Şərq qapısı” və rayon qəzetlərində məqalələr dərc edilmişdir. Aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən isə sığorta işinin əhəmiyyəti mövzusunda torpaq mülkiyyətçilərinin iştirakı ilə rayon, qəsəbə və kəndlərdə müvafiq seminarlar keçirilmişdir. Geni dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş məhsulların muxtar respublikaya idxalına yol verilməməsi barədə xarici iqtisadi fəaliyyətlə məşğul olan biznes subyektləri ilə görüşlər keçirilmişdir. Bununla yanaşı, üzərində geni dəyişdirilmiş məhsul olması haqqında məlumatlar olan mallara nəzarət gücləndirilmişdir. Naxçıvan Gömrük Ekspertizası İdarəsində genetik modifikasiya olunmuş məhsulların analizinin aparılması üçün müvafiq avadanlıqlar alınmış, qida məhsullarında gen dəyişikliyinin öyrənilməsinə başlanılmışdır. Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən daha çox geni modifikasiya olunması ehtimalı olan məhsulların siyahısı hazırlanaraq gömrük sərhəd-buraxılış məntəqələrinə göndərilmişdir.



Dövlət proqramına uyğun olaraq muxtar respublikada şoranlaşmış və qrunt sularının üzə çıxması nəticəsində əkin dövriyyəsindən çıxmış torpaq sahələri müəyyənləşdirilmişdir. Həmin sahələrin əkin dövriyyəsinə qaytarılması və bu prosesin qarşısının alınması üçün torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri aparılmış, Şərur, Culfa, Babək, Sədərək rayonlarında bataqlaşan və şoranlaşan torpaq sahələrində 37 kilometr kollektor, 9 kilometr açıq drenaj lildən təmizlənmiş, 2 kilometr yeni açıq drenaj tikilmişdir.

2016-cı ildə muxtar respublika üzrə 975 hektar yonca sahəsində fitanomus zərərvericisinə, 1603 hektar taxıl və cavan meyvə bağlarında siçanabənzər gəmiricilərə qarşı, 374 hektar kartof sahəsində kolorado kartof böcəyinə qarşı, 11215 hektar taxıl sahəsində alaq otlarına qarşı, eləcə də 11 hektar sahədə bəzək bitkilərinin zərərverici və xəstəliklərinə qarşı kimyəvi mübarizə tədbirləri aparılmışdır. Bununla yanaşı, arpa, qarğıdalı, kartof, paxlalı, tərəvəz, xaşa, şənbəllə və günəbaxan toxumlarından nümunələr götürülərək analiz edilmişdir.

Kənd təsərrüfatı məhsullarının tədarükü, satışı və emalı üzrə cəmiyyət və birliklərin yaradılması istiqamətində də işlər görülmüş, “Naxçıvan Meyvə Tərəvəz Məhsulları” və “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli cəmiyyətləri təsis edilmiş, “Naxçıvan Muxtar Respublikası İstixanaçıları” İctimai Birliyi yaradılmışdır. Muxtar respublikada kommersiya baxımından əhəmiyyət kəsb edən iqtisadi əhəmiyyəti olan meyvə-tərəvəz məhsullarının tədarükü, saxlanması və realizasiyası imkanlarının qiymətləndirilməsi ilə bağlı təhlillər də aparılmışdır. Qonşu ölkələrdə, o cümlədən Türkiyə Respublikasında fermer birliklərinin yaradılmasında tətbiq olunan təcrübələr öyrənilmiş, istehsalçı birliklərin və fermer kooperativlərinin idarəetmə təcrübələri araşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan məhsulları Almaniyada keçirilən *“Beynəlxalq Yaşıl Həftə – 2017”* sərgisində nümayiş etdirilir




*Yanvarın 20-də Almaniyanın paytaxtı Berlində qida, kənd təsərrüfatı və bağçılıq sahəsində ənənəvi “Beynəlxalq Yaşıl Həftə – 2017” sərgisi işə başlayıb. 1926-cı ildən başlayaraq hər il keçirilən və Avropanın ən iri sərgisi olan “Beynəlxalq Yaşıl Həftə” sərgisində dünyanın 70-ə yaxın ölkəsindən 1500-dən çox şirkətin nümayəndələri iştirak edir.*

Bu sərgi kənd təsərrüfatı və emal müəssisələrinin öz məhsullarını nümayiş etdirmək üçün ənənəvi bir forum olduğundan Azərbaycan 9-cu dəfədir ki, sözügedən sərgidə iştirak edir və 200-dən çox çeşiddə müxtəlif kənd təsərrüfatı və yeyinti məhsulları nümayiş olunur.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirilib ki, Azərbaycana aid pavilyonda Naxçıvanda fəaliyyət göstərən şirkətlərin məhsulları da nümayiş etdirilir. Sərgiyə 9 istehsalçı şirkətdən 18 növdə, 54 çeşiddə məhsul çıxarılıb.

Sərgidə iştirak edən İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elnur Mahmudovla əlaqə saxladıq. O bildirdi ki, ilk günlərdən Naxçıvan məhsulları böyük maraq doğurub. “Beynəlxalq Yaşıl Həftə – 2017”də “Gəmiqaya Mineral Sular” MMC-nin və Babək “Sirab” ASC-nin mineral suları, “Cahan Çay” MMC-nin müasir şəkildə qablaşdırılan çayları, “Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi” MMC-nin şərabı, meyvə suları, halvası, “Şərur-3” MMC-nin spirtli içkiləri və likörü, “Ləzzət Biskvit və Şokolad Fabriki” MMC-nin vaflisi, lokumu və qənnadı məmulatları, “Naxçıvan Duz İstehsalı” MMC-nin duzu, Ordubadın mürəbbəsi, “Farma-Şah” MMC-nin dərman bitkilərindən hazırlanan çayları və kapsulları nümayiş olunur.

Yanvarın 28-nə qədər davam edəcək sərgi çərçivəsində iştirakçılara Naxçıvan Muxtar Respublikasının investisiya və biznes imkanları, həmçinin kənd təsərrüfatı sahəsində istehsal olunan rəqabətqabiliyyətli məhsullar barədə məlumat veriləcək.

Sərgi iştirakçılarına muxtar respublika haqqında müxtəlif çap materialları, jurnallar, broşürlər və disklər də paylanılıb.

***Yanğın, təbii fəlakətlər və digər gözlənilməz hadisələr nəticəsində vətəndaşlara məxsus daşınmaz əmlaka dəymiş zərərlərin əvəzinin ödənilməsində sığorta mühüm rol oynayır.***

# Yanğın hadisələrindən zərərçəkmiş vətəndaşlara sığorta ödənişləri verilib

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, müxtəlif sığorta hadisələri baş verdikdə sığortalanmış daşınmaz əmlak sahiblərinə dəymiş zərərlər sığorta orqanları tərəfindən qiymətləndirilərək əmlak sahibinə ödənilir. Eləcə də könüllü sığortalar üzrə vətəndaşlara məxsus ev əmlakının sığortası baş vermiş yanğın və digər sığorta hadisələri nəticəsində dəymiş zərərə görə əmlak sahiblərinə maddi təminat verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən “Şərq qapısı” qəzetinə bildirilib ki, vətəndaşlardan daxil olmuş müraciətlərə əsasən, yanğın hadisələri nəticəsində zərərçəkmiş sığortalı daşınmaz əmlaklara və ev əşyalarına baxış keçirilib, dəymiş zərərlər qiymətləndirilərək əmlak sahiblərinə ödənilib. Belə ki, baş vermiş yanğın hadisələri nəticəsində Kəngərli rayonunun Xok kənd sakini Dostəli Abbasova məxsus sığortalı daşınmaz əmlaka dəymiş zərərə görə 5283 manat və ev əşyasının yanmasından dəymiş zərərə görə 1000 manat sığorta ödənişi verilib. Baş vermiş digər bir yanğın hadisəsi Babək rayon Nehrəm kənd sakini Vüqar Abdullayevə məxsus evin bir otağına maddi zərər vurub. Hadisə nəticəsində dəymiş zərər qiymətləndirilərək həmin vətəndaşa 580 manat məbləğində sığorta ödənişi verilib. Naxçıvan şəhərinin “Əlincə” məhəlləsində yerləşən yaşayış binasındakı mənzildə baş vermiş yanğında isə vətəndaş Cəmil Süleymanova məxsus sığortalı daşınmaz əmlaka dəymiş zərərə görə 3015 manat, ev əmlakına dəymiş zərərə görə 1000 manat məbləğində sığorta ödənişləri verilib.

**Xəbərlər şöbəsi**

# Yaradılan şərait yeni uğurlara yol açır



*Dünyanın məşhur siyasət xadimləri, uzaqgörən ziyalıları hər bir xalqın, dövlətin tərəqqisini təhsilin inkişafı ilə əlaqələndiriblər, bu sahəyə diqqət və qayğını prioritet vəzifə sayıblar. Ümummilli liderimiz Heydər Əliyev də təhsil sahəsini strateji sahə hesab edir, onun inkişafına böyük önəm verirdi. Dahi rəhbərin* ***“Təhsil millətin gələcəyidir”*** *kəlamı bu gün hər bir Azərbaycan vətəndaşının beyninə qızıl hərflərlə həkk olunub. Bu gün ümummilli liderin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev parlaq gələcək naminə sağlam gənclik yetişdirmək yolunda böyük işlər görür. Buna yeni tədris ocaqlarının tikilib istifadəyə verilməsi, mövcud məktəb binalarının müasir tələblərə cavab verən arxitektura üslubunda yenidən qurulması, məktəblərin maddi-texniki bazalarının gücləndirilməsi, təhsil müəssisələrinə yüksəkixtisaslı müəllim kadrlarının cəlb edilməsi kimi tədbirləri misal göstərmək olar.*





Elə bu ayın 11-də Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbin binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi də sadalanan tədbirlər sırasındadır. Binanın açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirak etməsi məktəb kollektivinin məsuliyyətini daha da artırıb.

Açılışdan sonra biz də məktəbdə olduq. Qapıdan içəri girdiyimiz andan məktəbdə atdığımız hər addımda müasirlik gördük. Müəllim və şagirdlərin baxışlarında yeni məktəb binasının açılışının yaratdığı təbəssümü hiss etmək çətin deyildi. Məktəbin direktoru Pərvin Mirzəyeva məktəb barədə bizə ətraflı məlumat verdi:

– Ölkəmizdə 300-dən çox məktəbdə tədris rus dilində aparılır ki, bunlardan biri də Naxçıvan şəhərindəki bu məktəbdir. Bu təhsil ocağı 1939-cu ildən sırf rus məktəbi kimi öz işini davam etdirir. Burada uşaqlara rus dili, rus ədəbiyyatı ilə yanaşı, öz ana dilimiz də tədris olunur, ingilis, fransız dilləri öyrədilir. 600 şagird yerlik məktəbdə oxuyan 460 şagirdin təhsili ilə 59 müəllim məşğul olur. Keçən il ali məktəblərə qəbul imtahanında iştirak edən 23 şagirdin 15-i öz arzularına çataraq tələbə adını qazanıb ki, onlardan da 5-i 500-dən yuxarı bal toplayıb.





Builki məzunlardan bundan da yüksək nəticə gözlədiklərini deyən direktor bildirdi ki, məktəbdə 2 hazırlıq qrupu var. Burada 5 yaşında olan uşaqlar məktəbə hazırlaşdırılır, onlarda ilkin təsəvvürlər yaradılır. Məktəbin yeni binasının açılışından sonra övladlarının burada təhsil alması üçün müraciət edən valideynlərin sayı xeyli artıb. Hazırda məktəbdə 5-i elektron lövhəli olmaqla, 32 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, internetə qoşulmuş 42 kompüterin olduğu iki kompüter, müəllimlər, şahmat otaqları, kitabxana, bufet və idman zalı fəaliyyət göstərir. Məktəbin kitabxana fondunda 16871-i dərslik, 8410-u bədii ədəbiyyat, 252-si uşaq ensiklopediyası, 83-ü xəritə, 3-ü kitab disk olmaqla, 25640 ədəbiyyat yer alıb. Belə bir məktəb binasının ixtiyarımıza verilməsi bizi çox sevindirdi. Məktəbin açılışında Prezident cənab İlham Əliyevin iştirakı isə kollektiv üçün çox qürurverici bir haldır və bizim çiyinlərimizə böyük məsuliyyət qoyub. Açılışı yaddaşlarda qalan bir məktəbin kollektivi olaraq bundan sonrakı işimizdə daha fəal olmalı, bizə göstərilən etimadı doğrultmalıyıq.

Məktəbdə fəaliyyət göstərən müəllimlərin bəziləri orta təhsillərini burada alıblar. Onlardan biri ibtidai sinif müəllimi Xalidə Abbasovadır. 1964-cü ildə məktəbin birinci sinfinə qəbul edilən müsahibim 1981-ci ildən bu məktəbdə müəllim işləyir. Xalidə müəllimənin söhbəti:

– Sözümə cənab Prezidentin neçə cümlə ilə başlamaq istəyirəm. ***“Naxçıvanda belə bir məktəbin fəaliyyət göstərməsi onun göstəricisidir ki, rus dilinin öyrənilməsinə təkcə Bakıda deyil, Naxçıvanda və başqa bölgələrdə də maraq var. Mən bunu alqışlayıram. Bizim vətəndaşlarımız nə qədər çox müxtəlif dil bilsələr, onlar üçün bir o qədər yaxşı olacaq. Əlbəttə, qonşu ölkələrin dillərini bilməliyik ki, onlarla ünsiyyət saxlayaq, dostluğu möhkəmləndirək. Bu, həm də dövlətlərarası münasibətlər üçün mühüm amildir. Arzu edirəm ki, bu məktəbin məzunları Azərbaycanın layiqli vətəndaşları olsunlar”.***

Bəli, bu gün müasir standartlara cavab verən binada öz müəllimlik vəzifəmi yüksək səviyyədə yerinə yetirməyə çalışıram. Ümumiyyətlə, kollektiv bir amalla çalışır: məktəbin şagirdləri vətənə, millətə xeyirli övladlar olsunlar, gələcəkdə ölkəmizi layiqincə təmsil edə bilsinlər.

Hər gün qapıdan içəri keçdiyim anda məktəbin lap əvvəlki, mənim təhsil aldığım 70-ci illərdəki şəraitsiz vəziyyəti – üstü didilmiş partaları, qışda yanan kömür sobaları, yeriyəndə səs salan döşəməsi gözlərim önündə canlanır. Məktəbin ozamankı görkəmini indiki vəziyyətilə müqayisə etmək mümkün deyil. Belə şəraitli bir binada bundan sonrakı fəaliyyətimizin yüksək səviyyədə olacağına inanır, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektivimiz adından minnətdarlığımı bildirirəm.

Məktəb fəaliyyəti dövründə çoxlu nailiyyətlərə imza atıb.Təhsil ocağının şagirdləri bir çox yarışlarda, müsabiqələrdə, fənn olimpiadalarında, viktorinalarda iştirak edib, layiqli yerlər uğrunda mübarizə aparıblar və istəklərinə nail olublar. Ötən il Dövlət Bayrağı Günü münasibətilə keçirilən rəsm müsabiqəsində məktəbin şagirdi Selcan Hacıyeva, yüngül atletika üzrə yarışda Rüstəm Baxşıyev birinci yerə layiq görülüblər. Xalid Əliyev, Ümid Məmmədov, Məlahət Hacıyeva, Atilla Möhsünlü, İlham Zeynalov, Hidayət Əliyev, Renat Hacıyev və başqaları şahmat yarışlarında yaxşı nəticələr qazanıblar.

Fərdi şəkildə qazanılan uğurlarla yanaşı, məktəbin bəzi kollektivlərinin əldə etdikləri nəticələr də sevindiricidir. Belə ki, son yarışlarda məktəbin basketbol komandası üçüncü, qızlardan ibarət voleybol komandası üçüncü yerə çıxıb. Təhsil ocağı “Şən startlar” adlı məktəblərarası idman yarışında birinci, “Biz vətənin müdafiəsinə hazırıq” adlı hərbi oyunda isə ikinci yerə layiq görülüb.

*Təhsil yaşadığımız cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən başlıca amildir. Çünki təhsildə irəli getmədən qarşımızda duran problemlərimizi, yaxud da həllivacib olan məsələlərimizi həll edə bilmərik. Son illər respublikamızda təhsilin inkişafı yönündə keçirilən tədbirlər bir məqsəd daşıyır: savadlı, yüksək intellektə malik, dövlətçiliyə sadiq vətəndaşlar yetirmək. Sevindirici hal da odur ki, təhsilə sərf edilən maddi-mənəvi heç nə əbəs yerə getmir, öz bəhrəsini verir və nəticə etibarilə qarşıya qoyulan məqsədə nail olunur. Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbin kollektivi də yaradılmış şəraitdən səmərəli istifadə edərək göstərilən etimadı doğrultmağa səy göstərir.*

**Fatma BABAYEVA**

# Ötən il muxtar respublikada ailə dəyərlərinin qorunması diqqət mərkəzində saxlanılıb

***Ailələr xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynayır. Sevindirici haldır ki, cəmiyyətimizdə ailə institutu özünün sosial təyinatını və milli-mənəvi missiyasını tam və dolğun şəkildə qoruyub saxlamaqdadır. Bu da muxtar respublikada ailə dəyərlərinin əsrlərdir olduğu kimi qorunması və onun təməl prinsiplərinin möhkəm dayaqlar üzərində olması ilə bilavasitə bağlıdır. Muxtar respublikada ailə dəyərlərimizin yaşadılmasına yönəlmiş görülən işlər planlı şəkildə, dövlət siyasəti səviyyəsində həyata keçirilir. Ötən il də ailə dəyərlərinin qorunması, yeni nəslə aşılanması, yeniyetmə və gənclərin bu dəyərlərə sahib çıxması və yaşatması istiqamətində ardıcıl tədbirlər görülüb.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə institutunun gənclər arasında möhkəmləndirilməsi, ailə dəyərləri, ailə münasibətlərinin tənzimlənməsi, reproduktiv sağlamlığın qorunması, sağlam həyat tərzi, yeni nəslin sağlam doğulması və böyüməsi, erkən və qohum nikahlarının, internet və sosial şəbəkələrdən qeyri-düzgün istifadənin fəsadları ilə bağlı 13 dəfə muxtar respublikanın rayon və kənd mərkəzlərində qadın və gənclər arasında tədbir keçirilib, 12 dəfə tam orta məktəblərdə şagirdlər arasında maarifləndirici söhbətlər aparılıb. Keçirilən tədbir və seminarlarda iştirak edən iki minə yaxın müxtəlif yaş qruplarından olan qadın, uşaq və gənclərə komitə tərəfindən hazırlanmış ailə dəyərləri mövzusunda maarifləndirici broşür paylanılıb. Tədbirlərdə milli dəyərlərimizin tərkib hissəsi olan ailə institutunun qorunması və onun inkişafının təmin edilməsi, ailə münasibətlərində adət-ənənəyə yer verilməsi, sağlam ailənin formalaşmasının əsasları, ailə üzvlərinin hüquq və vəzifələrinin düzgün yerinə yetirilməsi, müasir texnologiyaların gənc ailələrə təsiri istiqamətində söhbətlər aparılıb.

Uşaq və qadınlar arasında 10 dəfə şeir, inşa yazı, rəsm, milli yeməklər, şirniyyatlar, əl işləri, film və foto müsabiqəsi, 3 dəfə festival, 11 dəfə qadınların əl işlərindən ibarət sərgi təşkil edilib, xüsusi qayğıya ehtiyacı olan qadınlar milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarına cəlb olunub. Ailə dəyərlərinin qorunması və yaşadılması baxımından ötən il keçirilən “Ailə dəyərlərimiz film və fotolarda” mövzusunda yaradıcılıq müsabiqəsini xüsusilə qeyd etmək lazımdır. Çünki film və fotolar medianın bir hissəsi olduğundan bunların hazırlanması və yayılması xalqımızın ailə dəyərləri haqqında ictimaiyyətdə rəy formalaşdırmaq gücündədir. Adıçəkilən müsabiqəyə 80 ədəd film və foto təqdim edən iştirakçılar adət-ənənələri, ənənəvi ailə münasibətləri və ailə mədəniyyəti, ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti, ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı, övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı kimi xalqımızın ailə dəyərlərini kosmetik yox, fundamental əsaslarla göstəriblər. Təbii ki, film və fotolar müxtəlif sosial təbəqələrdən olan sağlam fikirli, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaşadan nümunəvi ailələri göstərməklə yekunda ailə dəyərlərimizin mükəmməlliyini açıb, bununla yeni ailə həyatı quracaq gəncləri maarifləndirib.

Muxtar respublikada uzunömürlü ailələrin yubileylərinin qeyd edilməsi artıq ənənəyə çevrilib. Bu da dövlətimiz tərəfindən cəmiyyətimizin heç bir üzvünün, o cümlədən ahıllarımızın, yaşlı insanlarımızın unudulmadığının göstəricisidir. Ötən il komitə tərəfindən 10 nümunəvi uzunömürlü ailənin evlilik yubileyləri (gümüş, qızıl, brilyant, zümrüd, dəmir toyları) qeyd olunub. Bundan əlavə, komitədə yaradılan məlumat bazasına 220 uzunömürlü ailə haqqında məlumatlar əlavə edilib.

Nəsillərarası münasibətlərin qorunub saxlanılması, adət-ənənələrin, ailə dəyərlərinin gələcək nəsillərə ötürülməsi, xalqımızın dünənindən bu gününə, bu günündən sabahına ailə mənəviyyatını ehtiva edən körpünün yaradılması komitənin fəaliyyət istiqamətinin əsas mahiyyətidir. Ona görə də uzunömürlü ailələrin keçdiyi həyat yolunu, ailələrin uzunömürlü olmalarının sirlərini yeni nəslə aşılamaq üçün uzunömürlü ailələrlə yeniyetmə və gənclərin dəyirmi masa arxasında görüşləri təşkil edilib, diskussiyalar aparılıb.

Humanist olmaq, qayğı göstərmək, xüsusi qayğıya ehtiyacı olanları sevindirmək ən qiymətli ailə dəyərlərimizdəndir. Bu məqsədlə ötən il 16 ahıl tənha qadına və aztəminatlı ailəyə baş çəkilib, onların ümumi problemləri ilə maraqlanılıb, aradan qaldırılması ilə bağlı işlər görülüb, onlara məişət əşyası və ərzaq payı verilib. Həmçinin 80 nəfər aztəminatlı ailələrin uşaqları, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar geyim dəstləri ilə sevindirilib.

İllər dəyişdikcə, qloballaşma adı ilə xalqların dəyərləri sıxışdırıldıqca ailə dəyərlərimizi qoruyub saxlamaq daha çox zərurətə çevrilir. Ailə dəyərlərimiz ilk olaraq təlim-tərbiyə, əxlaq və mənəvi normalardır. Heç bir müasir çalarlı təlim-tərbiyə formaları ailə dəyərlərimiz kimi insanı kamilləşdirmək gücündə deyil. Ona görə də xalq olaraq ailə dəyərlərimiz əsasında formalaşan həyat tərzimiz dəyişilməzdir. Muxtar respublikada dövlətin həyata keçirdiyi ailə siyasətinin bu və ya digər aspektləri nəzərə alınaraq cari ildə də komitə tərəfindən Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarında əksini tapmış ailə dəyərləri ilə bağlı vəzifələrin icrası və verilən tapşırıqlar diqqət mərkəzində saxlanılacaq, sağlam ailələrin formalaşdırılması, xalqımızın ailə dəyərlərinin yaşadılması istiqamətində maarifləndirici tədbirlərin, yaradıcılıq müsabiqələrinin keçirilməsi, xüsusi qayğıya ehtiyacı olan ailələrin problemlərinin həlli və sair işlər davam etdiriləcəkdir. 2017-ci ildə də komitənin bu sahədə əsas hədəfi cəmiyyətə, ictimai mühitə daha yaxın olmaq, ailə dəyərlərinin təbliğində ünvanlılığı təmin etmək, əsrlərdən gələn xalqımızın mənəvi simasını yeni nəslə aşılamaqdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Naxçıvanın qış lövhələri





















Əli XUDİYEV

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 66